# QUBA-XAÇMAZ İQTİSADİ-COĞRAFİ RAYONUNDA SOSİAL-İQTİSADİ İNKİŞAF VƏ MİQRASİYA PROSESLƏRİ

**T.Ş.Bayramov**

*AMEA akad. H.Əliyev adına Coğrafiya İnstitutu*
*Az 1143, Bakı, H.Cavid pr., 115*
bayramovtural777@mail.ru

***Məqalənin tarixi:***

Daxil olub: 18 fevral 2019
Təkrar işlənməyə göndərilib:
9 aprel 2019
Çapa qəbul olunub 13 dekabr 2019

**Açar sözlər:**
ümumi və təbii artım
miqrasiya
sosial-iqtisadi inkişaf
region
iqtisadi və inzibati rayon

**X ü l a s ə**

Məqalədə, Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda 1990-2015-ci illər üzrə əhalinin təbii və ümumi artım səviyyəsi, miqrasiya artımı və azalmaları, əmək qabiliyyətli əhalinin işlə təminat səviyyəsi təhlil olunmuşdur. Həmçinin, yeni açılmış iş yerləri və ondan daimi iş yerlərinin sayı, iqtisadi-coğrafi rayonda və onun ayrı-ayrı inzibati rayonları üzə məşğul əhalinin payı göstərilmişdir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları çərçivəsində iqtisadi-coğrafi rayonda əhalinin həyat şəraitini yüksəltmək məqsədi ilə daimi və müvəqqəti olmaqla yeni iş yerləri açılmışdır. Buna uyğun olaraq, regionda əmək ehtiyatlarının kifayət qədər olması davamlı olaraq yeni iş yerlərinin açılması, xidmət sahələrinin əhalinin tələbatına uyğun qurulması demoqrafik inkişafa şərait yaratmışdır. Əhalinin sosial-iqtisadi şəraitinin aşağı səviyyədə olması miqrasiyanı artıran səbəblərdən olmuşdur. Beləliklə, regionda miqrasiyanın yaratdığı sosial-iqtisadi problemlər və onun həlli yolları, eləcə də, demoqrafik inkişafın tənzimlənməsi istiqamətləri göstərilmişdir.

## 1. Giriş.

Müstəqilliyin ilk illərində yaranmış sosial-iqtisadi böhran, bütün regionlarda olduğu kimi, Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda da əksər sənaye müəssisələrin fəaliyyətinin dayandırılmasına və nəticədə yaranmış işsizliklə əlaqədar əmək qabiliyyətli əhalinin digər şəhərlərə və ya xarici ölkələrə miqrasiya etməsinə səbəb olmuşdur.

Əhalinin həyat şəraitini yüksəltmək və ölkədə uzunmüddətli sosial-iqtisadi inkişafı təmin etmək üçün 2004-2008, 2009-2013 və 2014-2018-ci illəri əhatə edən "Dövlət Proqramları" hazırlanmışdır. Belə ki, "Dövlət Proqramları"nın işlənib hazırlanması həm ölkənin, həm də Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda əmək qabiliyyətli əhalinin işlə təmin olunmasında, miqrasiyanın və demoqrafik göstəricilərin tənzimlənməsində əsaslı rol oynamış və bu proses hal hazırda da davam etdirilir.

## 2. Material və metod.

Məqalədə Azərbaycan Respublikasının alim və tədqiqatçılarının regionların sosial-iqtisadi inkişafı, demoqrafik proseslərin inkişafı və miqrasiyaya dair əsərləri, həmçinin, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarından istifadə olunmuşdur.

Tədqiqatın aparılmasında statistik, müqayisəli təhlil və kartoqrafik üsullardan istifadə edilmişdir.

## 3. Təhlil və müzakirə.

Mütəqilliyin ilk illərində yaranmış iqtisadi-siyasi çətinliklər respublikanın ayrı-ayrı regionlarında olduğu kimi iqtisadi-coğrafi rayonda da əhalinin sosial-iqtisadi şəraitinə mənfi təsir göstərərək onların yaşayış məntəqələrinin tərk etmələrinə səbəb olmuşdur. Bu da regionda məskunlaşan əhalinin miqrasiyasının artması ilə müşahidə olunmuşdur.

1980-ci illərin axırı və 1990-cı illərin əvvəllərində ölkədə gedən müharibə və ermənilərin Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağı işğal etməsi nəticəsində bir milyondan artıq azərbaycanlı öz torpaqlarını məcburi şəkildə tərk edərək ölkənin digər regionlarına pənah gətirmişlər. Bu da daxili miqrasiyanın artması ilə nəticələnmişdir.

Cədvəldən göründüyü kimi, 1995-cı ildə Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda əhalinin işlə təminat səviyyəsi aşağı olmuşdur. Muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı 379,4 manat, işçilərin orta aylıq əmək haqqı isə 30,2 manat, fəaliyyət göstərən müəssisələrin sayı 53, işçilərin orta siyahı sayı isə 6281 nəfər təşkil etmişdir. Status almış işsizlərin sayı 1116 nəfər, muzdla işləyənlərin sayı 71,2 min nəfər, tikinti təşkilatlarının sayı 54, onlarda çalışan işçilərin sayı isə 637 nəfər olmuşdur (cədvəl 1).

Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda 1995-ci ildə əhalinin miqrasiya artımı 1343 nəfər olmaqla, 1990-cı ildəki göstəricisinə (2176 nəfər)

nisbətən 1,6 dəfə azalmışdır. İqtisadi-coğrafi rayonda ümumi artım səviyyəsi 1,7 dəfə azalaraq 6700 nəfər olmaqla ölkə üzrə (82700 nəfər) ümumi artımın 8,1%-ni təşkil etmişdir. Həmçinin, əhalinin təbii artım səviyyəsi də 5357 nəfər olmaqla, 1990-cı ildəki göstərici ilə (9024 nəfər) müqayisədə 1,7 dəfə və ya 40,6% azalaraq, ölkə üzrə (92487 nəfər) əhalinin təbii artım səviyyəsinin 5,8%-ni təşkil etmişdir. Ayrı-ayrı inzibati rayonlar üzrə də əhalinin həm təbii artım, həm də ümumi artım səviyyəsi aşağı olmuşdur.

İstehsalın səmərəli ərazi təşkili, ictimai-iqtisadi formasiyadan aslı olmayaraq, hər hansı bir ölkədə iqtisadi və sosial inkişafın, xalqın maddi rifah halının yaxşılaşdırılmasının mühüm şərtlərindən bi-ridir. Məhsuldar qüvvələrin ölkə ərazisində səmərəli yerləşdirilməsi, sosial-iqtisadi inkişafla yanaşı həmdə mühüm strateji hərbi-siyasi əhəmiyyət kəsb edir. Ona görə də regionda istehsalın səmərəli ərazi təşkilinə böyük diqqət yetirilməsi, bu prosesi ümumi dövlət nəzarəti altında saxlamaq və onun idarə olunması üçün kompleks tədbirlərin görülməsi zəruridir [6].

Quba-Xaçmaz iqtisadi-coğrafi rayonu əmək ehtiyatları ilə yaxşı təmin olunmuşdur. Belə ki, 2009-cu ilin əhalinin siyahıyaalınma məlumatına əsasən əmək qabiliyyətli əhalinin payı 66,0% olmuş, bu da respublika göstəricisinə (67,9%) yaxın olmuşdur. İqtisadi-coğrafi rayonda əmək ehtiyatlarının düzgün paylanması üçün inzibati rayonlarda məskunlaşan əhalinin tələbatına uyğun yeni iş yerlərinin açılmasına, sosial-infrastruktur sahələrinin gücləndirilməsinə ehtiyac vardır.

Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda "Regionların sosial-iqtisadi inkişafı Dövlət-Proqram"ları 2004-2008-ci illər çərçivəsində bir sıra tədbirlər görülmüşdür. Belə ki, nəqliyyat sisteminin yaxşılaşdırılması məqsədi ilə Bakı-Xudat-Rusiya sərhəddinədək avtomobil yolu yenidən bərpa edilmiş, ucqar dağ kəndləri ilə rayon mərkəzlərini birləşdirən kənd yolları əsaslı təmir olunmuşdur.

Əhalinin suvarma infrastrukturasının yaxşılaşdırılması məqsədi ilə Xanarx, Vəlvələçay-Taxtakörpü kanalları tikilmiş, Samur-Abşeron kanalının 23 km hissəsi bərpa edilmişdir. Regionda məskunlaşan əhalinin məşğulluğunun artırılması məqsədi ilə yüngül sənaye obyektlərinin müasir texnologiyalar əsasında yenidən qurulmasına və bəzilərinin fəaliyyətlərinin bərpasına başlanılmışdır.

2000-2010-cu illər ərzində iqtisadi-coğrafi rayonda status almış işsizlərin sayı 1422 nəfər və ya 33,3%, fəaliyyət göstərən sənaye müəssisələrinin sayı 76 ədəd və ya 33,3%, işçilərin orta aylıq nominal əmək haqqı 163,1 manat və ya 33,3% təşkil etmişdir. 2005-2010-cu illər ərzində açılmış iş yerlərinin sayı 7555, ondan daimi iş yerlərinin sayı isə 3966, ümumilikdə isə 50% qeydə alınmışdır. İqtisadi-coğrafi rayonda 2010-cu ildə iqtisadi cəhətdən fəal əhalinin sayı 486,2 nəfər, məşğul əhalinin sayı isə 228,5 min nəfər olmuşdur.

**Cədvəl 1**

**Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda əhalinin iş yerləri ilə təminat səviyyəsi**

| | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|---|---|
| Açılmış iş yerlərinin sayı | - | - | 9145 | 5965 | 4693 | 9542 | 8373 |
| Ondan daimi iş yerlərinin sayı | - | - | 5460 | 2472 | 3690 | 8743 | 7308 |
| Muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı (manatla) | 379,4 | 29,8 | 78,1 | 231,6 | 303,5 | 303,5 | 317,1 |
| Status almış işsizlərin sayı, nəfər | 1116 | 1668 | 1489 | 1111 | 969 | 1282 | 1386 |
| Tikinti təşkilatlarının sayı, ədəd | 54 | 20 | 28 | 24 | 29 | 26 | 29 |
| Onlarda çalışan işçilərin sayı, nəfər | 637 | 938 | 543 | 560 | 840 | 1102 | 1434 |
| Fəaliyyət göstərən müəssisələrin sayı | 53 | 68 | 76 | 84 | 91 | 95 | 93 |
| İşçilərin orta siyahı sayı, cəmi nəfər | 6281 | 5191 | 4386 | 4552 | 3967 | 4254 | 4237 |
| İşçilərin orta aylıq əmək haqqı, manatla | 30,2 | 52,2 | 117,5 | 319,7 | 446,2 | 459,1 | 470,2 |
| Məşğul əhalinin sayı, min nəfər | - | - | - | 228,5 | 247,8 | 252,5 | 255,5 |
| Muzdla işləyənlərin sayı, min nəfər | 71,2 | 40,0 | 49,0 | 49,4 | 49,1 | 51,1 | 51,8 |
| İşsizliyə görə müavinat alanların sayı, nəfərlə | - | 72 | 62 | 6 | 49 | 134 | 205 |
| İqtisadi cəhətdən fəal əhali, nəfər | - | - | - | 486,2 | 391,0 | 507,7 | 542,5 |

Mənbə: Azərbaycanın regionları, Bakı 2018, DSK, səh. 371-431, 795 s. Azərbaycanın sənayesi, Bakı 2018, DSK, səh. 228-229, 339 s. Əmək bazarı, Bakı 2018, DSK, səh. 153-166, 167 s.

**Cədvəl 2**

**Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda əhalinin təbii artımı və miqrasiya prosesləri (nəfərlə)**

| | 1990 | | | 1995 | | | 2000 | | | 2005 | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | ümumi artım | təbii artım | miqrasiya artım+ azalma - | ümumi artım | təbii artım | miqrasiya artım+ azalma - | ümumi artım | təbii artım | miqrasiya artım+ azalma - | ümumi artım | təbii artım | miqrasiya artım+ azalma - |
| Azərbaycan Respublikas | 86600 | 140170 | -53570 | 82700 | 92487 | -9787 | 48200 | 70293 | -22093 | 89900 | 89939 | -39 |
| Quba-Xaçmaz iq.r | 11200 | 9024 | 2176 | 6700 | 5357 | 1343 | 4000 | 4442 | -442 | 4900 | 5829 | -929 |
| Qusar | 1100 | 1579 | -479 | 1500 | 995 | 505 | 1500 | 721 | -21 | 300 | 846 | -546 |
| Xaçmaz | 3500 | 2930 | 570 | 2200 | 1696 | 504 | 2200 | 1459 | -59 | 1500 | 1966 | -466 |
| Quba | 4800 | 2730 | 2070 | 1700 | 1658 | 42 | 1700 | 1432 | -332 | 2300 | 1893 | 407 |
| Şabran | 1000 | 1785 | -785 | 500 | 590 | -90 | 500 | 472 | -72 | 400 | 707 | -307 |
| Siyəzən | 800 | - | - | 800 | 418 | 382 | 800 | 358 | 42 | 400 | 417 | -17 |

| | 2010 | | | 2015 | | | 2016 | | | 2017 | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | ümumi artım | təbii artım | Miqrasiya artım+ azalma - | ümumi artım | təbii artım | miqrasiya artım+ azalma - | ümumi artım | təbii artım | miqrasiya artım+ azalma - | ümumi artım | təbii artım | Miqrasi-ya artım+ azalma - |
| Azərbaycan Respublikası | 113500 | 112063 | 1437 | 112600 | 111513 | 1087 | 104400 | 102813 | 1587 | 88100 | 86932 | 1168 |
| Quba-Xaçmaz iq.r | 6000 | 6430 | -430 | 6900 | 6789 | 111 | 6200 | 5962 | 238 | 5300 | 5189 | 111 |
| Qusar | 900 | 972 | -72 | 1300 | 1128 | 172 | 1100 | 1031 | 69 | 1000 | 910 | 90 |
| Xaçmaz | 1800 | 2044 | -244 | 1900 | 2215 | -315 | 1700 | 1857 | -157 | 1500 | 1682 | -182 |
| Quba | 2000 | 2110 | -110 | 2300 | 2141 | 159 | 2200 | 1940 | 260 | 1600 | 1548 | 52 |
| Şabran | 800 | 774 | 26 | 900 | 740 | 160 | 800 | 685 | 115 | 700 | 603 | 97 |
| Siyəzən | 500 | 530 | -30 | 500 | 565 | -65 | 400 | 449 | -49 | 500 | 446 | 54 |

*Mənbə: Azərbaycanın demoqrafik göstəriciləri. Bakı. 2018. DSK. səh. 118-182. 496 s.*

Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda 2000-2010-cu illər üzrə əhalinin ümumi artım səviyyəsi yüksəlmişdir. İqtisadi-coğrafi rayonda əhalinin ümumi artım səviyyəsi 4967 nəfər və ya 33,5%, təbii artım səviyyəsi isə 5567 nəfər və ya 33,3% yüksəlmişdir. Buna uyğun olaraq, miqrasiya azalması müşahidə olunaraq 600 nəfər və ya 33,3% qeydə alınmışdır.

Quba-Xaçmaz iqtisadi-coğrafi rayonu 2000-2010-cu illər ərzində ölkə üzrə ümumi artım (83867 nəfər) səviyyəsinin 5,9%-ni, təbii artım (90765 nəfər) səviyyəsinin isə 6,1%-ni təşkil etmişdir. Ayrı-ayrı inzibati rayonlar üzrə də əhalinin təbii və ümumi artım səviyyəsi yüksək olmuşdur.

Əhali miqrasiyasının əsas demoqrafik nəticələrindən biri onun cins və yaş tərkibinin pozulmasıdır. Miqrasiya edənlərin çoxu kişilər olduğundan onların əhali arasında payı çoxalır, ailə qurma şəraitində böyük çətinliklər yaranır. Bu da demoqrafik göstəricilərin hər zaman yüksək olduğu kəndlərdə əhalinin sayının azalması ilə nəticələnir [5].

Miqrasiyada əmək qabiliyyətli əhali, xüsusilə də kişilər iştirak etdiyindən əhalinin təbii artım səviyyəsinin azalmasına səbəb olmuşdur. 2010-cu ildə Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda miqrasiya edənlər arasında kişilər üstünlük təşkil etmişdir. Belə ki, iqtisadi-coğrafi rayonda kişilər arasında miqrasiya artımı 36 nəfər və ya 8,4% olmaqla, ölkə üzrə kişilər arasında (42800 nəfər) miqrasiya artımının 0,1%-ni təşkil etmişdir. Həmçinin, Şabran inzibati rayonunda kişilər arasında miqrasiya artımı 74 nəfər olmaqla, iqtisadi-coğrafi rayondan 2,0 dəfə və ya 51,4% yüksək olmuşdur.

Azərbaycanın ayrı-ayrı regionlarında miqrasiyanın gedişi ilk növbədə əhalinin təbii artımı, ərazinin təbii-coğrafi şəraiti, sosial-iqtisadi inkişaf səviyyəsi, təsərrüfatın strukturu, inkişaf perspektivləri, əmək ehtiyatlarının işlə təminat səviyyəsi və s. amillərlə bağlıdır. Əhalinin yaşayışı üçün qeyd edilən amillərin əlverişli olduğu regionlarda əhalinin miqrasiyası zəifdir [4].

Yuxarıda qeyd edildiyi kimi, miqrasiyanın artması demoqrafik göstəricilərə, əhalinin təbii artımına, cins və yaş xüsusiyyətlərinə mənfi təsir göstərir. Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda da əhali arasında miqrasiyanın intensivləşməsi təbii artım səviyyəsinin aşağı düşməsinə səbəb olur. Eləcə də, əmək qabiliyyətli əhalinin iş tapmaq məqsədi ilə digər regionlara və ya qonşu Rusiya

Federasiyasına miqrasiya etməsi yüksək demoqrafik potensiala malik kənd əhalisinin sayının azalması və ya kəndlərin boşalması ilə nəticələnir.

Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda 2015-ci ildə əhalinin ümumi və təbii artım səviyyəsi 2010-cu illə müqayisədə nisbətən az artmışdır. Belə ki, əhalinin təbii artım səviyyəsi 1,0 dəfə və ya 5,3% artaraq 6789 nəfər, ümumi artım səviyyəsi isə 1,1 dəfə və ya 13,1% artaraq 6900 nəfər olmuşdur.

Həmçinin, ayrı-ayrı inzibati rayonlarda da əhalinin təbii və ümumi artım səviyyəsi yüksək olmuşdur. Bununla yanaşı iqtisadi-coğrafi rayonda əhalinin miqrasiya artımı 111 nəfər olmaqla, ölkə üzrə miqrasiya artımının (1087 nəfər) 10,2%-ni təşkil etmişdir. 2015-ci ildə miqrasiya artımının ən yüksək göstəricisi Şabran inzibati rayonunda (160 nəfər) qeydə alınmaqla iqtisadi-coğrafi rayondan 1,4 dəfə və ya 69,4%, 2010-cu ildəki göstəricisinə nisbətən isə (26 nəfər) 6,1 dəfə və ya 83,8% yüksək olmuşdur.

Azərbaycanın iqtisadi tarixinin son 20 ilində ilk dəfə olaraq regionlarla bağlı iri miqyasda, əhalinin sosial-iqtisadi inkişaf səviyyəsini yüksəltmək üçün Dövlət Proqramları hazırlanmışdır. Proqramların əsas vəzifəsi Respublikada hərtərəfli inkişaf etdirilmiş milli iqtisadiyyatı qorumaq və tarazlı səviyyədə inkişaf etdirmək, mövcud potensialdan daha səmərəli istifadə etməklə sənaye sahələrinin və kənd təsərrüfatının inkişafını sürətləndirmək, əhalinin yaşayış səviyyyəsini yaxşılaşdırmaqla yoxsulluq probleminin həllinə nail olmaqdır [10].

Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda 2009-2013-cü illər ərzində həyata keçirilən Dövlət Proqramları çərçivəsində meyvəçilik məhsullarının inkişafı üçün Şabran və Qubada meyvəçilik bağları, Xaçmaz inzibati rayonunda isə meyvə-tərəvəzlərin saxlanılması üçün anbarlar tikilmişdir. Həmçinin, regionda avtomobil yollarının əsaslı təmiri üçün Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhəddinin 4,8 km yolu təmir olunmuşdur.

"Tarixin sonu və sonuncu insan" əsərinin müəllifi F.Fukuyama qeyd etmişdir ki, qabaqcıl ölkələrə kütləvi immiqrasiya axınını və dövlətləri daxili və xarici gərginliyin ən çox ehtimal olunan mənbəyidir [7].

Bununla belə, beynəlxalq miqrasiya proseslərinin gələcək üçün mümkün sosial-iqtisadi nəticələri hələlik nisbətən az təhlil olunmuş problemlərdəndir. İlk olaraq qabaqcıl ölkələrdə müxtəlif alimlər "Şərqdən-Qərbə", "Cənubdan-Şimala" miqrasiya axınının güclənməsinə dair həyacan təblini çalmağın vaxtı olduğunu qeyd etmişlər.




**Şəkil 1. Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda 2017-ci il üzrə əhalinin iş yerləri ilə təminat səviyyəsi, ümumi və təbii artımı, miqrasiya prosesləri**

Tarixən müşahidə olunmuşdur ki, miqrasiya prosesləri iqtisadi böhranların, etnik münaqişələrin, sosial gərginliklərin və partlayışların səbəbi kimi də çıxış edir.

Müharibələrin və etnik münaqişələrin tez-tez baş verməsi miqrasiyanın sayının artmasına gətirib çıxarmışdır. Miqrantalın Avropaya giriş qapısı kimi baxdıqları İtaliyada gəmi yolu ilə gəldikləri miqrantların sayı hər il artmaqdadır. Buna uyğun olaraq, ölkədə insan alverinin sayı da artmışdır. Ben Holun fikrincə miqrantların sayını azaltmaq və insan alverinə qarşı mübarizə metodu kimi, ölkəyə gələnləri qaçqın mərkəzlərində qeydiyyata almaqla nisbətən tənzimləmək olar [9].

Xəritədə, 2017-ci il ərzində Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda və onun ayrı-ayrı inzibati rayonları üzrə yeni açılmış iş yerləri və ondan daimi iş yerlərinin sayı, əhalinin təbii və ümumi artım səviyyəsi, miqrasiya artım və azalmaları göstərilmişdir.

2017-ci ildə iqtisadi-coğrafi rayonda yeni açılmış iş yerlərinin sayı 8373 olmaqla ölkə üzrə iş yerlərinin 3,0%-ni, ondan daimi iş yerlərinin sayı isə 7308 olmaqla ölkə üzrə 4,1%-ni təşkil etmişdir. Yeni açılmış iş yerlərinin sayına görə ən yüksək göstərici Quba inzibati rayonunda (2695) qeydə alınmaqla iqtisadi-coğrafi rayon üzrə 32,2%-ni, ondan daimi iş yerlərinin sayına görə isə ən yüksək göstərici Xaçmaz inzibati rayonunda (2311) olmaqla iqtisadi-coğrafi rayon üzrə 31,6%-ni təşkil etmişdir.

Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda əhalinin ümumi artım sayı 5300 nəfər və təbii artım səviyyəsi 5189 nəfər olmaqla ölkə üzrə bu göstəricinin 6,0%-ni, miqrasiya artımı isə 111 nəfər olmaqla ölkə üzrə 9,5%-ni təşkil etmişdir. Həmçinin, Quba və Xaçmaz inzibati rayonlarında əhalinin ümumi və təbii artım səviyyəsi digər inzibati rayonlardan yüksək olmuşdur. Bununla yanaşı, digər inzibati rayonlarda miqrasiya artımı olsa da, Xaçmaz inzibati rayonunda miqrasiya azalması 182 nəfər qeydə alınmışdır.

2017-ci ildə Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda məşğul əhalinin ən yüksək payı Xaçmaz (32,0%) və Quba (30,4%) inzibati rayonlarında qeydə alınmışdır. Məşğul əhalinin payının ən az göstəricisi isə Siyəzən inzibati rayonunda (8,1%) olmuşdur. İqtisadi-coğrafi rayonda məşğul əhalinin sayı 255,5 min nəfər olmaqla ölkə üzrə məşğul əhalinin 5,3%-ni təşkil etmişdir.

Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda 2015-ci ildə açılmış iş yerlərinin sayı 4693 olmaqla 2010-cu illə müqayisədə 1,3 dəfə və ya 21,3% azalmışdır. Ancaq daimi iş yerlərinin sayı 3690 olmaqla 1,5 dəfə və ya 33% artmışdır. Daimi iş yerlərinin artması iqtisadi-coğrafi rayonda yaşayan əhalinin işlə təmin olunmasına və sosial şəraitlərinin yüksəldilməsinə müsbət təsir göstərmişdir. Bununla əlaqədar olaraq status almış işsizlərin sayı 2010-cu illə müqayisədə 12,8% azalaraq 969 nəfərə çatmışdır. Fəaliyyət göstərən sənaye müəssisələrinin sayı isə 1,1 dəfə və ya 7,7% artmışdır. Həmçinin, məşğul əhalinin sayı da 1,1 dəfə və ya 7,8% artaraq 247,8 min nəfərə çatmışdır.

2014-2018-ci illər Dövlət Proqramları çərçivəsində iqtisadi-coğrafi rayonda əhalinin həyat şəraitinin yüksəldilməsi və miqrasiyanın qarşısının alınması məqsədi ilə işlər davam etdirilmişdir. Belə ki, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhəddi avtomobil yolunun 111-131-ci və 14-cü kilometrlərində təmir işləri yerinə yetirilmişdir. Şabran və Siyəzən inzibati rayonlarında suvarılan torpaqların su təminatının yaxşılaşdırılması təmin edilmişdir.

Dövlət proqramı çərçivəsində Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması məqsədi ilə Siyəzən şəhərində elektrik və istilik enerjisi ABOEM hesabına təmin olunan idman kompleksinin tikintisi davam etdirilir. Həmçinin, regionda məskunlaşan əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə iqtisadi-coğrafi rayonda ərazinin əlverişli coğrafi mövqeyini nəzərə alaraq Xaçmaz, Quba və Qusar inzibati rayonlarında turizm və rekreasiya zonalarının yaradılması məqsədi ilə kompleks işlər davam etdirilir.

## 4. Nəticə.

1. Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda müstəqilliyin ilk illərində ölkədə yaranmış iqtisadi böhran əhalinin miqrasiyasının artmasına səbəb olmuşdur. Bu da regionda məskunlaşan əhalinin həm ümumi artımına, həm də təbii artım səviyyəsinə mənfi təsir göstərmişdir. Yüksək dağlıq ərazilərdə məskunlaşan əhali kənd yaşayış məntəqələrini tərk edərək kəndlərin boşalmasına və ya əhalisinin sayının azalmasına səbəb olmuşdur.

2. Quba-Xaçmaz iqtisadi-coğrafi rayonunda "Regionların sosial-iqtisadi inkişafı Dövlət-Proqram"ları (2004-2008, 2009-2013 və 2014-2018-ci illər) çərçivəsində əhalinin sosial-iqtisadi inkişafını yüksəltmək məqsədi ilə yeni iş yerləri, o cümlədən, daimi iş yerləri əsasən rayon mərkəzlərində açılmışdır. Nəticədə əsas sənaye sahələri və kənd təsərrüfatı emal edən müəssisələr şəhər mərkəzlərində yerləşdiyindən əhali burada daha çox cəmlənmişdir və bu da kəndlərdə məskunlaşan əhalinin rayon mərkəzlərinə miqrasiya etməsinə səbəb olmuşdur.

## ƏDƏBİYYAT


1. Azərbaycanın demoqrafik göstəriciləri. Bakı. 2018. DSK. 496 s.
2. Azərbaycanın regionları, Bakı 2018, DSK, 795 s.
3. Azərbaycanın sənayesi, Bakı 2018, DSK, 339 s.
4. Eminov Z.N. Azərbaycanın əhalisi. Bakı: Çıraq, 2005, 558 s.
5. Eminov Z.N, Paşayev N.Ə, Əyyubov N.H. Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası. Bakı: Çıraq, 2010, 416 s.
6. Eminov Z.N. Azərbaycan Respublikasında demoqrafik inkişafın regional problemləri və demoqrafik siyasət. "Azərbaycan Respublikasında demoqrafik inkişaf; əhali məskunlaşmasının perspektivləri və regional problemləri" Elmi konfransın materialları. Bakı 2016, səh. 10-18, 584 s.
7. Fukuyama F. The end of History and the Last man N.Y., 1997, 347 p.
8. Əmək bazarı, Bakı 2018, DSK, 167 s.
9. Hall B. Immigration in European Union: problem or solution? // OECD Observer. 2000, Nº 221, p. 96
10. Həsənov T.G. İqtisadi-coğrafi rayonlaşdırma. Bakı Unversiteti nəşriyyatı 2012, 245 s.


### SOCIOECONOMIC DEVELOPMENT OF AND MIGRATION PROCESSES IN THE ECONOMIC-GEOGRAPHIC REGION OF GUBA-KHACHMAZ

**T.Sh.Bayramov**

**Abstract**. The article deals with natural increase rate and overall population growth for the period of 1990-2015, migration processes, employment rate of the population at working age in the Guba-Khachmaz economic-geographical region. In the givern map the number of new and permanent workplaces, the rate of employment population is shown by the economic-geographical of region and its five districts.

The paper concerns also measures implemented in the framework of the State Program on socio-economic development, and the new jobs created in the studied region aimed at improving the living of the population. The availability of adequate labor resources in the region, as well as the creation of new jobs and the convergence of services sectors with the needs of the population create the conditions for demographic development. Low socio-economic conditions of life of the population are one of the reasons for the increase in migration. The article also shows the socio-economic problems created by migration, as well as the ways for regulating the demographic development.

**Keywords**: natural and overall increase, migration, region, socio-economic development, economic and administrative district.

### СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ И МИГРАЦИОННЫЕ ПРОЦЕССЫ В ГУБА-ХАЗМАЗСКОМ ЭКОНОМИКО-ГЕОГРАФИЧЕСКОМ РАЙОНЕ

**Т.Ш.Байрамов**

**Резюме**. В статье показаны общий рост населения, естественный прирост, миграционный рост и спад в 1990-2015 гг., а также уровень занятости трудоспособного населения в Губа-Хачмазском экономико-географическом районе. На карте также показана доля занятых людей в экономико-географическом районе и его отдельных административных округах.

В рамках Государственной программы социально-экономического развития для повышения уровня жизни населения созданы новые рабочие места в экономико-географическом районе. Наличие достаточных трудовых ресурсов в районе, а также создание новых рабочих мест и сближение секторов услуг с потребностями населения создали условия для демографического развития. Низкие социально-экономические условия жизни населения являются одной из причин увеличения миграции. В статье также показаны социально-экономические проблемы, создаваемые миграцией, а также способы регулирования демографического развития.

**Ключевые слова**: естественный и общий рост, миграция, регион, социально-экономическое развитие, экономический и административный район.